**22 oktyabr Xudayarın şəhid olduğu gündür.**
*(sonet çələngi)*

I
Xudayar çağırdı anan adını,
Söylədi: -Bəxtinə Xuda yar olsun!
Qəlbində arzular yetsin murada
Ömrünün yolları növbahar olsun!
Ana laylasıyla yurdsevərliyi,
Hopdurdu qanına şirin bayatı.
Hələ beşikdəykən qığıltıların,
Kiminə "Cəngi"ydi, kimə "Heyratı".
Bu ömür yolları fəsil-fəsildi,
İnsanlar dünyada nəsil-nəsildi,
Heç nə yayınmayır Tanrı gözündən
Anan sevgi ilə əl açdı göyə,
Qəlbinə məhəbbət ələnsin deyə,
Şəfqətlə əyilib öpdü üzündən.
II
Şəfqətlə əyilib öpdü üzündən,
Dedi: Oğul balam, tanı özünü.
Damarında axan qanınla qoru,
Anatək müqəddəs "vətən" sözünü.
Sənə qucaq açan bu qoca diyar,
Ulu babaların əmanətidir.
Mənim söylədiyim ana öyüdü,
Qoca nənələrin zəmanətidir.
İllər gəlib keçər bircə an ki-
mi,
Qoru torpağını öz
anan kimi,
Sadiqlik bu
yurdun əri-
nə xasdı.
Bu torpaq
böyüdür
mərdi,
qoçağı,
Ərən ba-
baların
qeyrət oc-
ağı,
Səni məhəb-
bətlə bağrına ba-
sdı.
III
Səni məhəbbətlə bağrına ba-
sdı,
Arzu köynəyini geyinən yollar.
Elin yaddaşında dönür heykələ
Vətəni səntək sevən oğullar.
Yurdunu canından çox sevdiyindən,
Özünə sərhədçi peşəsi seçdin.
Vətənin ən kiçik daşına belə
Ömürlük sədaqət andını içdin.
Vuruldun torpağın hər qarışına,
Döndün pərvanətək yurdun başına,
Adladın dağından, keçdin
düzündən.
Döyüş yollarından xəbər alınca,
Anan dua etdi sənin dalınca ,
Oğul ətri gəldi kövrək sözündən.
IV
Oğul ətri gəldi kövrək sözündən,
Suyundan içdiyin ayna bulağın.
Yurdun sərhədləri qayıtsın deyə,
Qanlı döyüşlərdən gəldi sorağın.
Söylədin: Sərhəddə duran igidin,
Duruşu yad gözə sancılan oxdur.
Qeyrətli sərhədçi qəlbində təkcə,
Vətən sərhədinin sərhədi yoxdur!
Düşmən çəpəridir qamətin, görkün,
Törəsi əzəldən belədir türkün,
İradəsi dəmir, ürəyi kövrək.
Silahdı qüdrətin, qeyrətdi gücün,
Yurdun harayına yetişmək üçün,
Böyüdün həyatda ər oğlu ərtək.
V
Böyüdün həyatda ər oğlu ərtək,
Çəkdin keşiyini ana torpağın.
Hər səhər öpmüsən sərhəd boy-
unca,
Üzünü üçrəngli uca bayrağın.
Sərhədçi ömrünün hər məqamında ,
Yurdunu düşünür, vətəni anır.
Torpaq bədnəzərdən üşüyər deyə
Onun damarında qan alovlanır.
Silahdan çəkmədən öz əllərini,
Hər gün çiçəkləyən nəğmələrini,
Yazdın yaddaşlara qalsın yadigar.
Əzəli əbədi bir nəfəs kimi,
Canlı haray kimi, ulu səs kimi,
İstədin yurddaşın olsun bəxtiyar.
VI
İstədin yurddaşın olsun bəxtiyar,
Səsinlə dərələr, dağlar isindi
Otuz il möhnətdə qalan torpağın,
Köksündə üşüyən çağlar isindi
Oğul hünəriylə, ər qeyrətiylə,
Hər daşı, qayanı öpdü gözlərin.
Sevgiyə susamış torpağın üstə
Axdı nəğmə-nəğmə şirin sözlərin.
Həsrətin, möhnətin saçını yoldun,
Nəğmədən yonulmuş bir heykəl ol-
dun,
Bu cavan ömürdə, bu cavan yaşda.
Sevgi çağlayırdı nəğmələrində,
Hər gün döyüşürdü nəğmələrin də .
Qarabağ uğrunda gedən savaşda.
VII
Qarabağ uğurunda gedən savaşda
Şəhadət bağından sən də gül dər-
din.
Könüllər oxşayan nəğmələrini,
Döyüşçü dostların qəlbinə sərdin.,
Zamanın fövqündə dayandı andın,
Arzun nəğmələrə döndü çağladı.
Ucaltdın adını elin, obanın,
Rəhmində yer verən Bərdə ağladı.
Vardın döyüşlərə cəsarətinlə,
Savaş



meydanında dəyanətinlə
Amansız düşməni çox eylədin xar.
Ələndi üstünə mərmi yağışı
Pozuldu ömrünün gənclik naxışı,
Adını tarixə yazdın, Xudayar.
VIII
Adını tarixə yazdın, Xudayar,
Şirin təbəssümün aləmi sildi.
Dastana sığmayan oğul hünərin,
Düşmənə əbədi qənim kəsildi.
Qeyrət ətri hopmuş arzularını,
Vətənin boynuna taxdın, igidim.
Otuz il ucalan dərd hasarını,
Düşmənin başına yıxdın, igidim.
Açdın yaxasını xatirələrin
Dodaqda nəğməyə döndü hünərin,
Çəkildin bəxtinin lap güneyinə.
Ağdamın yurduna həsrət pələngi ,
Çağladı qanında qəfil bir "Cəngi"
Şəhidlik köynəyi geydin əyninə.
IX
Şəhidlik köynəyi geydin əyninə,
Qorxudan ölümün rəngi ağardı.
Tanrı mələkləri qondu səsinə,
Səni nəğmə-nəğmə çəkib apardı.
Yağıştək ələndi yağı gülləsi,
Sinəndə astaca çiçəklədi qan.
Səni qucaqladı Vətən torpağı,
Öpdü lalə-lalə yaralarından.
O hansı bağçadı gülü solmayan?
-Qisməti şəhidlik eşqi olmayan
Cənnət libasını çətin geyinə.
Əcəl öz əlində tutsa da fərman,
Ölüm qorxutmadı səni heç zaman,
Düşməni almadın heç vaxt eyninə.
X
Düşməni almadın heç vaxt eyninə,
Sərhədçi adını uca saxladın.
Nəğməyə döndərib vətən eşqini,
Sevgi dənizitək hər vaxt çağladın.
Söylədin, bu Vətən işığa bənzər,
Sərhədçi ürəyim pərvanəsidir .
Torpaq məhəbbəti yanar ocaqtək
Mənim taleyimi hər gün isidir.
Ümidlə yoğurdun yavan ömrünü,
Qoyub ayaq altda cavan ömrünü ,
Zəfər qalasını inamla hördün.
Açdı yaxasının hünər yolları,
Əridi fələyin şaxtası, qarı,
Qartaltək uçduğun zirvəyə döndün.
XI
Qartaltək uçduğun zirvəyə döndün,
Seyr etdin Vətənin sərhədlərini .
Üzü qələbəyə gedən yollara,
Səpdin nəğmə-nəğmə ümidlərini.
Vətən nəğməsinin ətri, qoxusu,
Hopdu qəribsəmiş yurdun daşına.
Zəngilan döyüşçü nəğməkarının,
Səsini yazıbdı yurd yaddaşına.
Bəxt yara alsa da öz sinəsindən,
Zəfər köynəyini geymiş səsindən,
Kədər çiliкləndi, qəm qəlpələndi.
Yurd yeri sevgiylə çıxdı qarşına,
Doğma Qarabağın hər qarışına,
Səsindən qələbə ətri ələndi.
XII
Səsindən qələbə ətri ələndi,
Aldı qucağına Ağbənd kəndini.
Vətənin üçrəngli bayrağı ilə,
Səsin salamladı yurd sərhədini.
Sərhədçi oğlunun gözündən öpüb
Özündən-özünə döndü Zəngilan.
"Şəhidim, yurduna xoş gəldin", -
deyib,
Kövrələ-kövrələ dindi Zəngilan.
Dərdin dağlarında ulayan
qurdun
Kənd-kənd, oba-oba
dağılan yurdun
Üzünə- gözünə
fərəh çiləndi.
Qeyrət ayna-
sında özünü
görüb ,
Üçrəngli bay-
rağın üzünü
görüb,
Zəfər sevincinə
torpaq bələndi.
XIII
Zəfər sevincinə tor-
paq bələndi ,
Ali Baş Komandan
"Hücum!"- deyəndə .
Dəmir yumruğunu göyə qaldırıb,
"Müzəffər ordumdu-gücüm"- deyən-
də.
Bu cavan ömrünə qıydığı üçün,
Hələ də utanır ölüm qurşunu,
Şəhidim önündə farağat durub,
Fəxarətlə keçir Sərhəd qoşunu.
Payızda önündə diz çökdü yağı,
Sərib sinən üstə şanlı bayrağı
Ata ocağına şərəflə döndün.
Bu qısa ömürdə məhəbbət dolu,
Adın mübarəkdir, ey türkün oğlu
Vətəndə əbədi nəğməyə döndün.
XIV
Vətəndə əbədi nəğməyə döndün,
Xudayar, zəfərli çağın mübarək!
Payızda Vətənə bahar gətirdin ,
Şəhadət ətirli bağın mübarək!
Nəğmədən özünə bir xeymə qur-
dun,
İçində sevdalı ellər dincəlir.
Şuşa da, Laçın da azad olubdu,
Şəhidim, səsindən yurd ətri gəlir.
Arxada qalmasın gözün, Xudayar,
Sönməz ürəklərdə közün, Xudayar,
Yazıb yaddaşına zaman adını...
Haqqı var analar oğlunu öyə,
Xuda taleyinə yar olsun deyə,
Xudayar çağırdı anan adını.
XV
Xudayar çağırdı anan adını,
Şəfqətlə əyilib öpdü üzündən.
Səni məhəbbətlə bağrına basdı,
Oğul ətri gəldi kövrək sözündən.
Böyüdün həyatda ər oğlu ərtək,
İstədin yurddaşın olsun bəxtiyar.
Qarabağ uğrunda gedən savaşda,
Adını tarixə yazdın, Xudayar.
Şəhidlik köynəyi geydin əyinə,
Düşməni almadın heç vaxt eyninə,
Qartaltək uçduğun zirvəyə döndün.
Səsindən qələbə ətri ələndi,
Zəfər sevincinə torpaq bələndi,
Vətəndə əbədi nəğməyə döndün.

**Zaur Ustac**
*"Yazarlar" jurnalının baş redaktoru.*